**Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında "Azərbaycan Respublikasının Ukraynada yerləşən Snejnyansk şərab zavoduna (Donetsk vilayəti) mülkiyyət hüququnun və Ukraynanın Azərbaycan Respublikasında yerləşən "Tavriya" Bakı Xüsusiləşmiş avtomobil mərkəzinə mülkiyyət hüququnun tanınması haqqında" Protokolun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında "Azərbaycan Respublikasının Ukraynada yerləşən Snejnyansk şərab zavoduna (Donetsk vilayəti) mülkiyyət hüququnun və Ukraynanın Azərbaycan Respublikasında yerləşən "Tavriya" Bakı Xüsusiləşmiş avtomobil mərkəzinə mülkiyyət hüququnun tanınması haqqında" 1999-cu il iyulun 30-da Kiyev şəhərində imzalanmış Protokol **təsdiq edilsin**.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 24 mart 2000-ci il
850-IQ

**Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında Azərbaycan Respublikasının Ukraynada yerləşən Snejnyansk şərab zavoduna (Donetsk vilayəti) mülkiyyət hüququnun və Ukraynanın Azərbaycan Respublikasında yerləşən «Tavriya» Bakı Xüsusiləşmiş avtomobil mərkəzinə mülkiyyət hüququnun tanınması haqqında**

**PROTOKOL**

Azərbaycan Respublikasının Hökuməti və Ukrayna Nazirlər Kabineti (bundan sonra — Tərəflər), Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında mülkiyyət münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının qarşılıqlı tanınması haqqında Sazişə müvafiq olaraq aşağıdakıları tanımaq qərarına gəldilər:

**1. Azərbaycan Respublikasının mülkiyyəti kimi**

Snejnyansk şərab zavodu — Ukrayna, Donetsk vilayəti, Snejnoye şəhəri

**2. Ukraynanın mülkiyyəti kimi**

«Tavriya» Bakı Xüsusiləşmiş avtomobil mərkəzi — Azərbaycan Respublikası, Bakı şəhəri

3. Bu Protokolun 1 və 2-ci bəndlərində göstərilən müəssisələr öz təsərrüfat fəaliyyətlərini yerləşdikləri dövlətin qanunvericiliyinə uyğun həyata keçirirlər.

4. Bu Protokol, onun 1 və 2-ci bəndlərində göstərilən müəssisələrin yerləşdikləri dövlətin qanunvericiliyinə uyğun digər dövlətin mülkiyyəti kimi qeydiyyata alınması üçün əsasdır.

5. Azərbaycan Respublikası və Ukrayna bu Protokolun 1 və 2-ci bəndlərində göstərilən müəssisələrə mülkiyyət hüququna bu Protokol qüvvəyə minən gündən malik olur.

6. Bu Protokol Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında mülkiyyət münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının qarşılıqlı tanınması haqqında Sazişin qüvvəyə minməsi ilə eyni vaxtda və Sazişdə nəzərdə tutulan qayda üzrə qüvvəyə minir.

1999-cu il iyulun 30-da Kiyev şəhərində hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır. Protokolun müddəalarının təfsiri zamanı hər hansı fikir ayrılığı yarandığı halda rus dilindəki mətnə üstünlük veriləcəkdir.

| Azərbaycan Respublikası Hökuməti adından | Ukrayna Nazirlər Kabineti adından |
|---|---|
| *(imza)* | *(imza)* |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S. 2450-2451.